**Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2021-ci il üzrə məruzəsində qeyd edilmiş təkliflər:**

- Ruhi xəstəliklərdən əziyyət çəkən və ya cəza çəkdiyi dövrdə psixi sağlamlıq vəziyyətində ciddi dəyişikliklər baş verən şəxslərin psixiatriya müəssisələrinə yerləşdirilməsi ilə bağlı mexanizmin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 2011-ci il 29 noyabr tarixli, 4-N nömrəli qərarı ilə təsdiq edilmiş "Cəzanın çəkilməsinə mane olan ağır xəstəliklərə düçar olmuş məhkumların tibbi şəhadətləndirilməsi Qaydaları"nın yenidən işlənərək qəbul edilməsi;
- Cəzaçəkmə müəssisələrində məhkumların günün istənilən vaxtında tibbi təminata əlçatanlığının təmin edilməsi;
- Təqsirsizlik prezumpsiyası prinsipini nəzərə alaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli, 63 nömrəli Qərarı ilə təsdiq edilmiş "İstintaq təcridxanalarının daxili intizam Qaydaları"nın 5.11.3-cü bəndindəki "ilk dəfə cinayət törətmiş şəxslər" sözlərinin "ilk dəfə cinayət törətməkdə təqsirləndirilən şəxslər", "Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları"nın 2.31.3-cü bəndindəki "ilk dəfə cinayət törətmiş şəxslər" sözlərinin isə "ilk dəfə cinayət törətməkdə şübhəli bilinən şəxslər" sözləri ilə əvəz edilməsi;
- Cəzaçəkmə müəssisəsindən buraxılmış, lakin daimi yaşayış yeri olmayan məhkumlar üçün sığınacaqların sayının artırılması;
- Cəza çəkməkdən azad edilmiş şəxslərin sosiallaşması məqsədilə regionlar da əhatə olunmaqla sosial adaptasiya mərkəzlərinin sayının artırılması;
- Həbs edilmiş, habelə müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin sağlamlığının qorunması hüququnun effektiv müdafiəsi məqsədilə belə şəxslərin müayinə və müalicəsinin Penitensiar Xidmətin Müalicə Müəssisəsində aparılması mümkün olmadıqda, zəruri tibbi xidmətlərin digər tibb müəssisələrində dövlət hesabına həyata keçirilməsi ilə bağlı müvafiq qanunvericiliyə zəruri əlavə və dəyişikliklərin edilməsi.